**Xəzər Universiteti**

# Keyfiyyət Təminatı Siyasəti

**(2019-2023-cü illər üzrə)**

Xəzər universitetinin keyfiyyət təminatı siyasəti akademik dürüstlük, ömürboyu öyrənmə, peşəkarlıq, məsuliyyət və yaradıcılıq dəyərlərini özündə birləşdirən 2019-2023-cü illər üzrə Strateji Planının icrasını dəstəkləyir.

Bu siyasət Xəzər universitetinin başlıca məqsədinə hər gün, hər saat mükəmməliyə doğru ənənəsinə sadiq qalıb öz missiyasını və dəyərlərini nəzərə alaraq tələbəmərkəzli təhsil mühitinin təşkili ilə hər bir təhsilalanın şəxsi potensialının üzə çıxarılmasına təkan verərək, nəzəri və praktiki biliklərə yiyələnən, o cümlədən ümumbəşəri və milli dəyərlərə sadiq və liderlik keyfiyyətlərinə malik yüksək ixtisaslı kadrların yetişdirilməsinə yönəldilir.

Keyfiyyət təminatı siyasəti sənədi hazırlanarkən Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının prinsipləri, beynəlxalq təcrübələr, o cümlədən Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Avropa Standartları və Təlimatları (ESG) nəzərə alınmışdır.

Keyfiyyət təminatı siyasəti aşağıdakı prioritetləri əsas tutur:

1. təhsilin keyfiyyətini təmin edən idarəetmə sisteminin səmərəliliyin artırılması üçün daim təkmilləşdirilməsi və idarəetmə strukturunun optimallaşdırılması;
2. təhsilin keyfiyyətinin davamlı təkmilləşdirilməsi məqsədilə təhsil proqramlarının monitorinqinin keçirilməsi;
3. tədris prosesində tələbəyönümlü interaktiv tədris metodları və texniki vasitələrdən istifadə etməklə, tələbənin daha fəal, məsuliyyətli, nəticəyönümlü təfəkkür əsaslı öyrənməyə və 21-ci əsr bacarıqlarına malik mütəxəssis olmağa təşviq edilməsi;

4. innovasiyayönümlü elmi tədqiqatların, layihələrin və startapların effektivliyinin artırılması, innovasiya təşəbbüskarlığının dəstəklənməsi;
5. elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesinə tətbiqi üçün əlverişli şərait yaradılması;
6. elmi-tədqiqat və tədris infrastrukturunun müvafiq maddi-texniki bazasının davamlı olaraq yaxşılaşdırılması;
7. təhsil və elm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, tələbələrin və professor-müəllim heyətinin mobilliyinin artırılması;
8. sağlam iş mühitini təmin etməklə, beynəlxalq əməkdaşlıqdan faydalanaraq həm akademik, həm də inzibati heyətin peşəkar inkişafının dəstəklənməsi;
9. universitetin əsas fəaliyyət göstəricilərini özündə ehtiva edən elektron idarəetmə informasiya sisteminin təkmilləşdirilməsi;
10. bütün maraqlı tərəflərlə effektiv kommunikasiyanın təşkili ilə onların daxili keyfiyyət təminatı prosesinə cəlb edilməsi;
11. daxili keyfiyyət təminatı sisteminin davamlı təkmilləşdirilməsi və keyfiyyət mədəniyyətinin inkişafının dəstəklənməsi;
12. təhsilin keyfiyyətinin təkmilləşdirilməsində həyata keçirilən tədbirlər haqqında daxili və xarici maraqlı tərəflərin məlumatlandırılması;
13. universitetdaxili və universitetdənkənar rəylər müzakirə edilərək mükəmməliyə doğru davamlı inkişaf üçün olan töhvələrin nəzərə alınması

Universitet rəhbərliyi Universitetin Keyfiyyət Təminatı Siyasətinin bütün əməkdaşlar tərəfindən səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə uyğun şərait yaradır. Universitetin həm professor-müəllim, həm inzibati heyəti, həm də tələbələri keyfiyyət təminatı siyasətinin reallaşdırılmasında birbaşa iştirak edirlər. Universitetin hər bir əməkdaşı gördüyü işin, tələbə isə öz aldığı təhsilin keyfiyyətinə görə məsuliyyət daşıyır.